UOT: 339.9
JEL: O 19

ALLAHVERDİYEV D.İ.
AMEA-nın İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi
iqtisad üzrə fəlsəfə doktoru,

BEYNƏLXALQ İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İQTİSADİ MƏNAFELƏRİN TƏNZİMLƏNMƏSİ

Xülasə

Məqalədə müasir şəraitdə beynəlxalq əməkdaşlığın gücləndirilməsi və iqtisadi mənafelərin tənzimlənməsi məsələləri, həyata keçirilmiş iqtisadi siyasətin konseptual əsasları təhlil edilmiş və bu sahədə görülən iqtisadi tədbirlərin səmərəliliyi elmi cəhətdən araşdırılmışdır.

Eyni zamanda bu istiqamətdə mövcud olan problemlər müəyyənləşdirilmiş və xarici iqtisadi əlaqələr ilə yanaşı yoxsulluğun aradan qaldırılmasında xarici və daxili faktorların qarşılıqlı əlaqəsi elmi cəhətdən əsaslandırılır və dövlətin tənzimləyici iqtisadi siyasəti elmi və nəzəri cəhətdən tədqiq edilir. Dünya iqtisadi siyasi müstəvisində Azərbaycanın əhəmiyyəti təhlil edilir və iqtisadi mənafelərin uyğunlaşdırılması məqamlarına diqqət yetirilir.

Açar sözlər: *Dünya iqtisadi siyasəti, iqtisadi diplomatiya, insan kapitalı, azad və sağlam mühitin qorunması, yoxsulluğun aradan qaldırılması, geosiyasi reallıqlar.*

GİRİŞ

Ölkənin milli və geosiyasi maraqlarının bütün səviyyələrdə təmin olunması ilə bağlı reallaşdırdığı xarici iqtisadi-siyasi fəaliyyətin öyrənilməsi, qarşıda duran məqsəd və vəzifələrin elmi-konseptual baxımdan araşdırılması Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının aktuallığını şərtləndirir. Azərbaycanın ətraf aləmlə geosiyasi münasibətlərinin, beynəlxalq, regional və milli siyasətinin əsas hədəflərinin, bütün iqtisadi-siyasi məsələlər üzrə istiqamətlərinin müəyyənləşdirilməsi və tədqiq edilməsi müasir dövr üçün səciyyəvidir. Belə ki, Azərbaycan özünün dövlət müstəqilliyini təkrarən əldə etdikdən sonra əsas məqsəd olaraq onun qarşısında suveren, demokratik dövlət kimi dünya birliyi tərəfindən tanınması, mövcud zəngin potensiala əsaslanaraq sosial-iqtisadi inkişafa nail olunması və iqtisadi təhlükəsizliyi təmin edən tədbirlərin görülməsi dayanırdı. Beynəlxalq aləmdə nüfuz qazanmış, ölkəni bütün dünyaya tanıtmış və inkişaf etmiş dövlətlərlə birgə əməkdaşlığa nail olan Azərbaycanın ümummilli lideri Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıdışından sonra bu vəzifələri uzaqgörənliklə həyata keçirmiş, ölkənin beynəlxalq iqtisadi əməkdaşlıq, milli mənafelər, iqtisadi təhlükəsizlik və digər istiqamətlər üzrə qorunmasını əsas hesab etmiş və göstərmişdir ki, yalnız bu zaman ən kiçik dövlət güclü olar. "Heç bir ölkə, hətta ən böyük ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz"[1] deyən ümummilli lider bütün problemlərin həllində daha düzgün və ən səmərəli tənzimləmə yollarının seçilməsinin, iqtisadi təhlükənin qarşısının alınmasının vacib olduğunu vurğulamışdır. Müasir xarici iqtisadi əlaqələrdə Heydər Əliyevin söylədiyi fikirlər ölkənin ictimai-siyasi və iqtisadi həyatında öz həllini tapmış və daha da qlobal miqyasda öz səmərəliliyini artırmaqdadır. Dünya iqtisadi siyasi əlaqələri gələcək illərdə də Azərbaycanın beynəlxalq iqtisadi əməkdaşlığının inkişaf etdiriləcəyini deməyə əsas verir. Bütün müasir inteqrasiya prosesləri beynəlxalq iqtisadi əməkdaşlığın genişləndirilməsinə münbit şərait yaradır. Belə ki, milli mənafelər və iqtisadi təhlükəsizlik baxımından dövlətin tənzimləmə problemlərinin bütün zamanlarda elmi və nəzəri cəhətdən təhlil edilməsi və tədqiqatların aparılması aktual olub, müasir dövrün əsas məsələlərini səciyyələndirir.

Lakin qeyd olunan məqamlarla yanaşı, əsas məsələlərdən biri kimi Azərbaycana qarşı siyasi və iqtisadi sahədə daxili və xarici təhlükələrin baş qaldırdığı ən ağır anlarda dövlətin apardığı məqsədyönlü siyasət və iqtisadi siyasətin tənzimlənməsi mühüm fəaliyyət hesab olunur. Belə ki, ölkənin təkcə bugünü deyil, həm də gələcəyin siyasi, hərbi və iqtisadi təhlükəsizliyinin qorunub saxlanılması vacibdir..

Beynəlxalq iqtisadi əməkdaşlığın əsas istiqamətləri

Dünya iqtisadi əlaqələrində müasir Azərbaycanın xarici iqtisadi əlaqələri inkişaf etmiş,

beynəlxalq iqtisadi birliklərlə fəaliyyətdə ticarət əlaqələri maksimum səviyyəyə qalxmışdır. Qlobal beynəlxalq proseslərə və demokratik hüquqi normalara uyğunlaşma, ölkənin problemlərini ümumdünya problemləri ilə əlaqələndirmə bacarığının mənimsənilməsi, iqtisadiyyatın tənzimlənməsi və iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi qarşıda duran əsas vəzifələrdən olmuşdur. Hazırda ölkədə sosial-iqtisadi inkişaf üzrə qarşıya qoyulan bütün məqsədlər düşünülmüşdür və elmi cəhətdən əsaslandırılmış iqtisadi strategiyamız ardıcıllıqla davam etdirilməkdədir (7.s.396).

Beynəlxalq əlaqələrin möhkəmləndirilməsi, iqtisadi-siyasi fəaliyyətin normal təşkil edilməsi, rəqabətqabiliyyətli əmtəə istehsalının yaradılması, sosial-iqtisadi inkişafa nail olmaq üçün inflyasiyanın qarşısının alınması, büdcə kəsirinin azaldılması ilə yanaşı iqtisadi təhlükəsizliyin, milli mənafeyin qorunması makro – mikro iqtisadiyyatda real sektorun problemlərinin həlli kimi aktual məsələlərin dövlət tənzimlənməsini zəruri etmişdir. Lakin qeyd etmək lazımdır ki, milli iqtisadiyyat mürəkkəb bir sistem olub müəyyən məkan və məhdud çərçivədə fəaliyyət göstərə bilməz. Bu baxımdan, ölkənin iqtisadi təhlükəsizliyi üzrə dövlət tənzimlənməsi problemləri müəyyən edildikdə bir çox daxili və xarici məsələlər nəzərə alınmalıdır. Bu məsələlərdən biri də beynəlxalq maliyyə qurumlarının tövsiyələridir. Hal-hazırda respublikamız bir çox beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Belə beynəlxalq təşkilatlardan Birləşmiş Millətlər Təşkilatını, Beynəlxalq Valyuta Fondunu, Dünya Bankını və.s misal göstərmək olar. Bu təşkilatlarla əməkdaşlıq milli mənafelər nəzərə alınmaqla respublikamızda bir sıra məsələlərin həllinə kömək göstərir və şübhəsiz, bu əməkdaşlıq gələcəkdə də davam etdiriləcəkdir.

Aparılan araşdırma göstərir ki, beynəlxalq qurumların, xüsusilə Beynəlxalq Valyuta Fondunun bir sıra tövsiyələri dövlətlərin milli maraqlarına uyğun gəlmir. Belə ki, bəzi hallarda bu tövsiyələr real sektorun canlanmasının, milli iqtisadiyyatın və insan inkişafının qarşısında maneələr yaradır. Ona görə də BVF-nun şərtləri birmənalı qəbul edilmir və milli mənafelərə, iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi məqsədlərinə xələl gətirə biləcək hər bir istiqamət vaxtında aşkar edilib aradan qaldırılmalıdır.

Müasir dünya iqtisadi siyasətində hazırda beynəlxalq təşkilatlar mürəkkəb bir sistemə daxil olaraq dövlətlərarası münasibətlərdə, xüsusən dünyada gedən ictimai-siyasi proseslərdə özünəməxsus rol oynayır. Onların beynəlxalq həyata mühüm və həlledici təsir göstərməsi müxtəlif tarixi mərhələlərdən keçərək, müasir dövrdə bu münasibətlərin intensivliyinə səbəb olmuş, dövlətlərarası qarşılıqlı əlaqələrin və əməkdaşlığın yaranmasında ciddi məsələyə çevrilmişdir. Beynəlxalq təşkilatlar müasir dünyada baş verən ictimai-siyasi, iqtisadi və mədəni proseslərdə, dövlətlərarası münasibətlərin inkişafı və möhkəmlənməsində mühüm rol oynayır. Onların yaranması tarixi gerçəkliyin tələblərindən irəli gəlir və beynəlxalq səviyyədə qlobal məsələlərin, dövlətlərarası münasibətlərin tənzimlənməsinə əsaslı şəkildə təsir göstərir. Lakin mövcud iqtisadi reallıqları və dünya iqtisadiyyatının statistikasını təhlil etdikdən sonra deyə bilmərik ki, tək BVF bu və ya digər ölkəni xoşbəxt edib. Belə bir nümunə yoxdur. Hadisələrin dinamik inkişafına baxdıqda aydın olur ki, bu gün dünyada BVF-nun fəaliyyətindən çoxsaylı alim və mütəxəssislər ciddi narazılıq edirlər. "Onun hiperinflyasiya, yüksək büdcə kəsirlərinə qarşı mübarizəyə, iqtisadi islahatların reallaşmasına və onların həyata keçirilməsinə köməyi olub. Lakin onların tövsiyələri milli mənafelər və iqtisadi təhlükəsizlik məsələləri nəzərə alınmaqla həyata keçirilməlidir".[3]

Qlobal iqtisadi problemlərin öyrənilməsi və aradan qaldırılması istiqamətində Azərbaycan Respublikasının son onillikdə insan potensialının inkişafı, onun sağlamlığına qarşı yaradılan maneələrin aradan qaldırılması, savadsızlığın ləğv olunması, milli mənafeyin qorunması və s. kimi iqtisadi təhlükə yarada biləcək amillərə qarşı mübarizə aparılması, milli və beynəlxalq təşkilatlar çərçivəsində uzaq xarici dövlətlər, eləcə də MDB ölkələri ilə qlobal iqtisadi problemlərin həllində beynəlxalq əməkdaşlığın getdikcə dərinləşməsi zəruri hesab edilir. Belə olduğu halda, Azərbaycan beynəlxalq qurumların tövsiyələrinə milli mənafelər və iqtisadi təhlükəsizlik baxımından diqqətlə yanaşmalıdır.

Beynəlxalq iqtisadi əməkdaşlıq prosesində milli mənafe və iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi məqsədilə qurulan əməkdaşlıqlara Azərbaycan Respublikası ilə Gürcüstan və Türkiyə Respublikaları arasında Şərq-Qərb Enerji Dəhlizinin təhlükəsizliyinin təmin edilməsi haqqında 2002-ci il iyunun 23-də Bakı şəhərində imzalanmış protokolu misal göstərmək olar. Bu protokol Bakı – Tbilisi-Ceyhan əsas ixrac neft –boru kəmərinin, Cənubi Qafqaz qaz-boru kəmərinin, Şərq-Qərb enerji dəhlizinin əsas komponenti kimi təhlükəsizliyin təmin olunmasını özündə birləşdirmişdir. Bu sənəd Azərbaycan Respublikasının milli maraq və mənafelərinə əsaslanaraq iqtisadi təhlükəsizliyin təminatı üçün zəruri hesab edilmişdir. Lakin adıçəkilən proqram bir sıra ölkələrdəki kimi Minilliyin İnkişaf Məqsədlərinə uyğun olaraq 2015-ci ilə qədərki dövrü əhatə etmişdir və 2006-cı ildə Bakı- Tbilisi-Ceyhan neft boru kəmərinin işə düşməsi ilə birlikdə Azərbaycanın təbii resurslardan əldə etdiyi gəlirlərin artması ilə daha böyük nailiyyətlər əsasında (2008-2015-ci illərdə ÜDM-in həcminin, o cümlədən qeyri-neft sektoru üzrə ÜDM-in real həcminin 2 dəfə artırılması, yoxsulluğun səviyyəsinin 2 dəfə azaldılması və s.) "2006-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" təsdiq olunmuşdur. Eyni zamanda, Azərbaycan iqtisadi siyasətinin əsas istiqamətlərindən biri də qeyri-neft sektorunun müxtəlif sahələrinin inkişafının təmin edilməsidir. Beləliklə, bu istiqamətdə daha çox turizmin, nəqliyyatın və logistikanın inkişafı nəzərdə tutulur. Turizm infrastrukturunun inkişafı növbəti illərdə Azərbaycana əlavə turist axınının cəlb olunmasını və Azərbaycanı Çin və Mərkəzi Asiya ilə (Şərq-Qərb dəhlizi), Rusiyanı İran və Cənubi Asiya ilə (Şimal-Cənub dəhlizi) birləşdirən əsas nəqliyyat və logistika mərkəzinə çevirməyi hədəfləyir.

Qeyd olunan məqamlarla yanaşı, vergi məsələləri üzrə beynəlxalq konvensiya dünya ölkələri arasında iqtisadi əlaqələrin getdikcə genişləndiyi bir dövrdə iqtisadi təhlükəsizliyin qorunması üçün xüsusi əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, dünya ölkələrində tətbiq olunan vizasız gediş-gəliş müsbət hal hesab olunur və bu məqamda vergi məsələsi əsas məsələ hesab edilmir, əsas məsələ dövlət siyasətinə vətəndaş rəğbətinin yaradılmasıdır.

Bununla yanaşı, prof. S.Səfərov "Beynəlxalq yük daşınmaları haqqında" Gömrük Konvensiyasına (TİR Konvensiyası) düzəlişlərin təsdiq edilməsinin iqtisadi inkişaf və iqtisadi təhlükəsizliklə birbaşa bağlı olduğunu göstərmişdir. Konvensiyada söhbət yük daşınmalarından gedir. Məlum olduğu kimi, bu sahədə hər bir ölkənin milli maraqları nəzərə alınmalıdır. Ona görə də təqdim olunan sənəd yükdaşımalar zamanı yaranmış müxtəlif bürokratik əngəllərin, iqtisadi təhlükələrin və digər bu cür problemlərin aradan qaldırılmasına xidmət edir.

İqtisadi Əməkdaşlıq Təşkilatının iştirakçısı olan dövlətlərin hökumətlərarası əməkdaşlıq haqqında sazişə dair əlavə protokola qoşulmağının da əhəmiyyəti böyükdür. Belə əməkdaşlıq bu təşkilatın üzvü olan Azərbaycan Respublikası üçün iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi baxımından zəruridir. Bu səbəbdən, respublikada iqtisadiyyatın, xüsusilə onun regionlarının inkişafı, aqrar sektorun gücləndirilməsi və s. fundamental problemlərin həlli üçün əsaslandırılmış, dünya təcrübəsində özünü doğrultmuş güzəştli mexanizmlər olmalıdır. Bunu dünya sosial-iqtisadi təcrübəsi də diktə edir. Obyektiv səbəblərlə bağlı hər bir güzəştin səmərə verməsi üçün mütləq düşünülmüş iqtisadi tənzimləmə mexanizmlərinin təminatı olmalıdır.

Belə ki, iqtisadi artım və onun ölçülməsi istehsal prosesinə əlavə istehsal məsələlərinin cəlb olunması, yaxud istehsal texnologiyasının təkmilləşməsi nəticəsində ümumi daxili məhsulun (ÜDM) həcminin, o cümlədən adambaşına düşən ÜDM-in həcminin yüksəlməsidir. Anlayışdan da göründüyü kimi, iqtisadi artım əsasən kəmiyyət dəyişməsini, yəni əhalinin həyat səviyyəsinin yüksəlməsinə imkan verən daha çox əmtəə və xidmətlərin istehsalını ifadə edir. İqtisadi artımdan fərqli olaraq, iqtisadi inkişaf dedikdə iqtisadiyyatdakı keyfiyyət dəyişikliyi başa düşülür. İqtisadi inkişaf əlavə iqtisadi artım üçün əsas yaratmaqla birlikdə, sosial-iqtisadi və mədəni strukturda, həmçinin əhalinin həyat səviyyəsində keyfiyyət dəyişikliyinə yol açır (2. s. 195).

Xarici iqtisadi əlaqələrin tənzimlənməsi və iqtisadi mənafelər

Konfutsinin irəli sürdüyü iqtisadi-siyasi ideyalar Qədim Çin dövlətinin milli ideologiyası-

nın əsasını təşkil etmiş və mənfəət, xarici ticarət, idarəetmə və dövlət gəlirləri haqqında mövcud olan ideyaları özündə əks etdirmişdir. Bunun əsasında iqtisadi tənəzzülün və onu yaradan səbəbin, sinfi ayrı-seçkiliyin aradan qaldırılmasının zəruriliyi qeyd olunmuşdur. Bu səbəbdən də hökmdar sinfi mübarizələrin ziddiyətli məqamında vətəndaşın və ziyalıların mənafelərinə üstünlük verilməsini şərtləndirmişdir. Eyni zamanda Konfutsi bildirmişdir ki, hökmdar vətəndaşın iqtisadi zənginliyinə dəstək verməli və maliyyə, pul siyasətində qeyri-bərabərliyə, sinfi ayrı-seçkiliyə şərait yaradan və onların maliyyə imkanlarını məhdudlaşdıran səlahiyyətli şəxsləri vəzifədən azad etməlidir. Konfutsi hesab edirdi ki, bu məqamları nəzərə almaqla hökmdar vətəndaşın təbii hüquqlarının qorunmasına münbit şərait yaratmış olar.

Dünyanın iqtisadi-siyasi təcrübəsinin təhlili göstərir ki, cəmiyyətlərin inkişaf etməsində, elmi-texniki tərəqqinin formalaşmasında aztəminatlı təbəqənin nümayəndələrinin rolu kifayət qədər önəmli olmuşdur. Belə ki, bütün zamanlarda maddi cəhətdən zəngin təbəqənin üzvlərindən fərqli olaraq, aztəminatlı təbəqənin nümayəndələri elm və təhsilə daha çox üstünlük verirmiş. Bununla da cəmiyyətin inkişafına töhfə verəcəklərinə və gələcək perspektivləri formalaşdıracaqlarına inanmışlar. Lakin xarici iqtisadi əlaqələrdə mövcud təhsil siyasəti aztəminatlı təbəqənin inamını sarsıtmışdır və onları çarəsizliyə düçar etmişdir. Belə ictimai-siyasi cəmiyyətlər istər-istəməz sinfi mübarizələrə sürüklənməyə məhkum olunur, istedadların parlamasının qarşısı alınır və xalqın intellektualları tənəzzülə uğrayaraq xarici qüvvələrin təsirinə düşür. Belə ki, müasir dövrdə dövlətlərin ən böyük milli sərvətləri onların nefti, qazı və sair təbii sərvətləri yox, insan kapitalı və insan potensialının intellektual gücüdür. İnkişaf etmiş dövlətlərin iqtisadi-siyasi təcrübəsi də bunu deməyə əsas verir ki, dövlət iqtisadi-siyasi infrastrukturlarını məhz bu intellektual güc sayəsində qurmuş, inkişaf etdirmiş və iqtisadi təhlükəsizliyini də bu istiqamətdə tənzimləmişdir. Bununla əlaqədar olaraq, AMEA-nın müxbir üzvü Ş.Muradovun qeyd etdiyi kimi, cəmiyyətlərin, dövlətlərin və ayrı-ayrı regionların gələcək inkişaf potensialı insan inkişafı konsepsiyasıdır (5,s.9) Heç də təsadüfi deyil ki, XX əsrin 70-80-ci illərində Azərbaycanda bu ideya ümummili lider Heydər Əliyevin siyasəti nəticəsində həyata keçirilmişdir Belə ki, dövlət səviyyəsində ucqar kənd məktəblərindən keçmiş SSRİ-nin müxtəlif şəhərlərində pulsuz ali təhsil alması üçün çoxsaylı gənclər cəlb edilmişdir ki, bu da Azərbaycan gəncliyinə əvəzsiz bir qayğı və ölkəmizin gələcəyinə yönəlmiş əvəzsiz kapital idi.

Dünya iqtisadi siyasətinin təcrübəsindən məlum olur ki, ticarət və istehsal fəaliyyətinin hüquqi etibarlığına dövlət tərəfindən müəyyən dərəcədə təminat olmayan ölkələrdə nadir hallarda inkişaf olur. Məhz buna görə də müasir iqtisadi şəraitdə iqtisadi təhlükəsizliyin tənzimlənməsinə mümkün nəzarət sisteminin yaradılmasına böyük ehtiyac vardır. Təcrübə göstərir ki, hansı ölkədə iqtisadi tənzimləmə fəaliyyəti düzgün və mükəmməl qurulursa, o ölkələrdə milli təhlükəsizliyin təmin edilməsi asanlaşır. Belə ki, inkişaf etmiş ölkələrdə mükəmməl və daim təkmilləşən iqtisadi siyasət strukturları xüsusi əhəmiyyət kəsb edir. İqtisadi təhlükəsizliyin qorunmasına yönəldilmiş iqtisadi siyasət sturukturuna aşağıdakıları aid etmək olar:

- Dövlət proqramlarının vaxtında, keyfiyyətlə yerinə yetirilməsinin təşkili;
- Dövlət xərclərinin məqsədəuyğun olaraq insan potensialında istifadə edilməsi;
- Xammal və istehsal olunan məhsulların insan inkişafına yönəldilməsi;
- Dövlətin iqtisadi siyasətində həyata keçirilən dəyişikliklərin məqsədəuyğunluğu;
- İqtisadiyyatın inkişafına yönəldilən investisiyaların səmərəliliyi;
- Maliyyə, pul-kredit və büdcə siyasətinin insan inkişafına düzgün yönəldilməsi.

Yuxarıda qeyd edilənlərlə yanaşı, elmi araşdırmaların nəticəsi ölkə iqtisadiyyatının tənzimlənməsində beynəlxalq iqtisadi əməkdaşlığın milli mənafelər və iqtisadi təhlükəsizlik baxımından dövlətin diqqət mərkəzində saxlanmasını zəruri hesab edir. Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası 2015-2017-ci illərdə daha da intensivləşmiş və inkişaf etmişdir. Bu, əsasən, Azərbaycanın xarici ticarət dövriyyəsinin və ticarət tərəfdaşlarının artmasında və s. sahələrdə özünü büruzə vermişdir. Təhlillərdən və proqnozlardan belə məlum olur ki, son illər Azərbaycan Respublikasının ÜDM həcmində

dəyişiklik qeyd olunmuşdur. Məsələn, 2015-ci ildə ÜDM həcmi 54355,1 mln, manat, 2016-cı ildə isə 59919,1 mln.manat olmuşdur. Azərbaycanın xarici ticarət dövriyyəsində də ciddi dəyişiklik müşahidə edilmişdir. Məsələn, 2015-ci ildə ixracın həcmi 15921,5 mln. ABŞ dolları olmuşdur. Qeyd olunan məsələlər aşağıda göstərilmiş cədvəldən də aydın görünür.

İdxal və ixrac olunan məhsulların dinamikası(əvvəlki ilə nisbətən, faizlə)

	2010	2014	2015	2016
İdxal olunan məhsulların məcmu və qruplar üzrə indeksləri				
Bütün məhsullar üzrə	**101,8**	**100,4**	**100,9**	**102,7**
Energetika məhsulları	96,9	97,0	98,8	98,9
Digər aralıq məhsullar	102,5	100,4	101,1	102,9
İstehlak məhsulları	100,3	101,5	99,0	105,1
Digər məhsullar	98,9	97,9	103,3	105,9
İxrac olunan məhsulların məcmu və qruplar üzrə indeksləri				
Bütün məhsullar üzrə	**95,5**	**92,9**	**54,9**	**81,7**
İnvestisiya məhsulları	99,3	99,2	99,3	100,7
Energetika məhsulları	91,7	86,8	52,9	86,9
İstehlak məhsulları	98,2	99,1	97,9	97,7
Qısa müddət üçün nəzərdə tutulan istehlak məhsulları	97,7	99,4	98,0	71,9
Digər məhsullar	98,3	99,9	100,1	160,9

stat.gov.az materialları əsasında tərtib edilib

Dünya dövlətləri ilə xarici iqtisadi əlaqələrin artması Azərbaycanın dünya ölkələri ilə əməkdaşlığının, iqtisadi münasibətlərinin daha da inkişaf etməsinin və genişlənməsinin, siyasi, sosial-iqtisadi və mədəni əlaqələrinin milli mənafeyin və iqtisadi təhlükəsizliyin keyfiyyətcə yeni mərhələyə keçməsinin əsas istiqaməti kimi səciyyələnir.

Bu məsələlər, ilk növbədə, mövzunun aktuallığına və parametrlərinə diqqət yetirilməsini zəruri edir. Aparılan iqtisadi araşdırmalar göstərir ki, ölkənin iqtisadi təhlükəsizliyini milli iqtisadiyyatı mümkün təhlükələrdən sığortalamaq təmin edə bilər. Belə bir şəraitdə hansı halların milli iqtisadiyyat üçün təhlükəli hesab edilməsini və onların hansı meyarlarına daha çox diqqət yetirilməsini təyin etmək ən vacib məsələlərdən biridir. Bununla əlaqədar olaraq, aşağıdakı məsələlərə diqqət yetirilməlidir:

- ölkənin xarici ticarət dövriyyəsində balansın pozulması, idxal üçün geniş imkanların yaranmaması, ixrac qabiliyyətinin zəifləməsi;
- ölkə əhalisinin həyat səviyyəsinin aşağı olması, işsizlər və yoxsulların sayının artması;
- milli iqtisadiyyatın strukturunda sahələrarası tarazlığın pozulması, ölkə iqtisadiyyatının birtərəfli inkişafı;
- investisiya siyasətinin müəyyən tələblərə cavab verməməsi, ölkə iqtisadiyyatına xarici investorların nəzarət limitlərinin aşması;
- xarici borcların optimal həddi keçməsi;
- iqtisadiyyatın prioritet sahələrinin düzgün müəyyənləşdirilməməsi;
- ölkədə ərzaq məhsullarının süni qiymət artımının mövcudluğu;
- dövlət ehtiyat fondlarının lazımi səviyyədə olmaması;

Bütün bu qeyd edilən məqamlar dövlətin iqtisadi siyasətinin pozulmasına,ciddi iqtisadi böhrana, əhalinin həyat səviyyəsinin zəifləməsinə, maliyyə və digər iqtisadi siyasi böhran təlatümlərinin yaranmasına səbəb ola bilər. Bununla əlaqədar, dövlətin iqtisadi siyasəti bu halların müşahidəsinə diqqətin artırılmasını və iqtisadi təhlükəsizliyin təmin edilməsini daha da aktuallaşdırır. Müasir dünya iqtisadi siyasətində baş verən hadisələr və beynəlxalq təcrübənin tədqiqi onu deməyə əsas verir ki, dövlətlərin iqtisadi təhlükəsizlik strategiyası əsasən aşağıdakı istiqamətlərdə olur:

-yaxın və uzaq persperktivdə ölkə üçün iqtisadi təhlükə yarada biləcək faktorların müəyyən edilərək qiymətləndirilməsi;

-ölkənin iqtisadi təhlükəsizliyinin əsas məqamlarının və parametrlərinin müəyyən olunması;

-iqtisadi-sosial stabilliyin təmin olunması, milli iqtisadiyyatdakı dayanıqlığın pozulmasına təhlükə yaradan məsələlərin aradan qaldırılması üçün çevik mexanizmin formalaşdırılması və onun mütəmadi olaraq təkmilləşdirilməsi;

NƏTİCƏ

Hər bir dövlətin iqtisadi təhlükəsizlik strategiyasının hazırlanmasında makroiqtisadi, xarici iqtisadi siyasətin çevikliyi, ekoloji və texnoloji keyfiyyət meyarları nəzərə alınmalıdır. İqtisadi siyasətin tənzimlənməsinin əsas məsələlərindən biri ölkənin xarici iqtisadi əlaqələri ilə bağlıdır. Belə ki, Azərbaycanın xarici iqtisadi əlaqələrində idxal və ixracın stimullaşdırılması və xarici ticarətin coğrafi imkanlarının genişləndirilməsinə mane olan faktorların aradan qaldırılması, bir qayda olaraq, daxili iqtisadi siyasətin hansı səviyyədə tənzimlənməsi, idxal-ixrac əməliyyatlarındakı nisbətlə müəyyən olunur. İqtisadi nəzəriyyədən məlumdur ki, idxalın ixracı üstələməməsi və birincinin xammal, ikincinin isə daha çox məhsul bazasında formalaşması ölkə iqtisadiyyatı üçün olduqca zəruridir.

Dünya iqtisadi əlaqələrində iqtisadi siyasətin tənzimlənməsinin əsas məsələlərindən olan dövlətin maliyyə-pul siyasəti büdcə gəlirləri və xərcləri arasında kəskin uyğunsuzluqla səciyyələnir. Belə ki, valyuta kursunun kəskin dəyərdən düşməsi və əksinə kəskin artması iqtisadi subyektlərin qarşılıqlı ödəniş stabilliyinin pozulmasına, inflyasiyanın və digər bu kimi mənfi halların yaranmasına səbəb olur. Dünya iqtisadi siyasətində baş verən bu kimi hallar göstərir ki, hansı müstəvidə yaranmasından asılı olmayaraq, iqtisadi böhran halı sərtləşdikdə, o, iqtisadi siyasətdə maliyyə narazılığı yaratmaqla yanaşı siyasi xaosların yaranmasına zəmin yaradır.

Buna görə də həmişə dövlətin bu sahədəki siyasətinin əsas istiqaməti kimi ölkə daxilində idxal məhsulları ilə rəqabət qabiliyyətinin artırılması üçün idxala tələb olunan səviyyədə gömrük rüsumları tətbiq edilməsi, tələbatın mümkün qədər yerli istehsal hesabına ödənilməsi təmin edilir ki, bu istiqamət müəyyən qədər idxalın artmasının qarşısını almış olur. Bununla əlaqədar, gömrük siyasətində liberal siyasətin tətbiqi mövcud dünya iqtisadi siyasətinin prioritet istiqaməti hesab edilir.

ÜDM hesablanarkən bir ölkənin digər ölkələr ilə iqtisadi əlaqələri nəticəsində yaranan ilkin gəlirlərin saldosu nəzərə alındığından, bu göstərici, başqa ölkələrə verilmiş və ya başqa ölkələrdən alınmış ilkin gəlirlərin fərqinin miqdarı qədər ÜDM-dən fərqlənir (4.s. 299).

Bu istiqamətdə nəticələrin əldə edilməsinə yönəlmiş tədbirlər: sosial bərabərsizliklərlə mübarizədə müsbət addımların təşviq edilməsi və dövlət tərəfindən effektiv şəkildə dəstəklənməsi; sosial bərabərsizliyi törədən səbəblərin aradan qaldırılması.

Bununla əlaqədar olaraq, təhlillərin məqsədi kimi aşağıda qeyd olunan iqtisadi tədbirlərin təmin edilməsi təklif olunur:

- makroiqtisadi sabitlik və iqtisadi artım;
- məşğulluq siyasəti və əhalinin sosial müdafiəsi;
- insan kapitalının inkişafı, əmək dəyərinin balanslaşdırılması və sosial tərəqqi.

ƏDƏBİYYAT SİYAHISI:

1. Heydər Əliyevin nitqi, dirçəliş XXI əsr jurnalı,. №1-2, 2000
2. Alıyev İ.H, "Rəqabət qabiliyyətliliyin təmin olunması problemləri", Bakı 2017
3. Mehdiyev R. "İkili standartların dünya nizamı və müasir Azərbaycan" «Azərbaycan» qəzeti, 15.07.2014
4. Ş.Muradov "İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər" Bakı 2014.
5. Nuriyev Ə.X, "Regionların siyasəti və idarəetmənin əsasları". Bakı 2007
6. www.prezident.az Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet səhifəsi
7. Həsənov Ə. "Azərbaycan Respublikasının milli inkişafı və təhlükəsizlik siyasətinin əsasları", Bakı 2016.

Аллахвердиев Д. И.

Международное экономическое сотрудничество и регулирование экономических интересов

Резюме

В статье проанализировано укрепление экономического сотрудничества и вопросы регулирования экономических интересов, концептуальные основы проводимой экономической политики и исследована эффективность проводимых мер в этой сфере.

В то же время с научной точки зрения, были определены существующие проблемы в этой области и наряду с внешнеэкономическими связями была обоснована взаимосвязь внешних и внутренних факторов в искоренение нищеты. В глобально экономико-политической сфере анализируется важность Азербайджана и уделяется внимание моментам согласование экономических интересов.

Ключевые слова: *мировая экономическая политика, экономическая дипломатия, человеческий капитал, свободная и здоровая окружающая среда, искоренение нищеты, геополитические реалии.*

Allahverdiyev D. I.

International economic cooperation and regulation of economic interests

Summary

In the article, economic interests of strengthening international cooperation, economic policy carried out in the conceptual basis of the effectiveness of economic measures in this field have been analyzed and studied scientifically.

At the same time, the existing problems in this field have been identified. On the other hand. elimination of poverty and economic relationship between the external and internal factors are justified scientifically and the state regulation, scientific and economic policies are studied theoretically. Global economic and political points of the analysis are focused on the importance of the connection of scientific approaches.

Keywords: *world economic policy, economic diplomacy, human capital, free and healthy environment, poverty eradication, geopolitical realities.*

Daxil olub: 13. 05.2018

Rəy verib: AMEA İqtisadiyyat Institutunun *"Aqrar islahatlar və ərzaq təhlükəsizliyi"* şöbəsinin müdiri i.e.d., prof., *Alıyev İ. H.*